**Azərbaycan-Türkiyə əlaqələrinin bu gün qardaşlıq, dostluq və müttəfiqlik səviyyəsinə yüksəlməsi, bunun fonunda bütün türk xalqlarının həmrəyliyinin möhkəmlənməsi türk birliyinin, sarsılmazlığının, əbədiliyinin nümunəsidir. Möhkəm təməllər üzərində qurulan Azərbaycan-Türkiyə münasibətləri 1991-ci ildə ölkəmiz öz müstəqilliyini bərpa etdikdən sonra bütün sahələrdə davamlı, yüksələn xətt üzrə daha da inkişaf etməyə başladı. Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək strateji tərəfdaşlıq əsasında qurulan əlaqələr günbəgün möhkəmləndi və sarsılmaz birliyə çevrildi. Bu münasibətlərin gündən-günə daha da güclənməsi regional əməkdaşlığa böyük töhfə oldu. Azərbaycan-Türkiyə sərhədində, Araz çayı üzərində tikilən "Ümid" körpüsü isə iki qardaş xalqın birliyinə, əbədiliyinə körpü saldı.**



"Bu gün bu qocaman Araz çayı üzərində, qədim türk dünyasında, Azərbaycan torpağında böyük bir tarixi hadisə baş verir. Türkiyə ilə Azərbaycan arasında "Ümid" körpüsü, "Həsrət" körpüsü açılır. Biz azərbaycanlılar, türklər əsrlər boyu Araz çayının o sahilində, bu sahilində dost, qardaş kimi yaşamışıq. Ancaq 70 il bir-birimizlə görüşmək üçün, əlaqə saxlamaq üçün həsrət çəkmişik. 70 il biz bu görüşü həsrətlə gözləmişik. İndi isə bizim bu arzularımız, diləklərimiz həyata keçibdir. Naxçıvan ilə, Azərbaycan ilə Türkiyəni bağlayan nəhəng bir körpü tikilmişdir".

**Heydər ƏLİYEV,**
**Ümummilli lider.**



# Azərbaycan-Türkiyə əlaqələrinin inkişafının başlanğıcı -
# Sədərək-Dilucu körpüsü

SSRİ-nin siyasi rəhbərliyindən
uzaqlaşdırıldıqdan sonra 1990-cı il
iyul ayının 20-də Heydər Əliyevin
Naxçıvana qayıdışı çox çətin veziy-
yətə düşmüş doğma yurduna yeni-
dən nəfəs verdi. 1990-1993-cü il-
lərdə Naxçıvanın ən ağır günlərin-
də ona dayaq duran Heydər Əliyev
Azərbaycanın imperiya azadlığın-
dan tamamilə xilas olması, müstə-
qil, demokratik və dünyəvi dövlət
kimi fəaliyyət göstərməsi üçün mü-
hüm, siyasi və ideoloji amilə çevri-
lən tarixi qərarları da məhz Naxçı-
vanda qəbul etdi. İlk dəfə olaraq
Naxçıvan Muxtar Respublikasında
Azərbaycan Xalq Cümhuriyyətinin
üçrəngli bayrağı dövlət bayrağı ki-
mi qəbul olundu. 1990-cı il Qanlı
Yanvar faciəsinə siyasi qiymət ve-
rildi. Bundan başqa, SSRİ-nin qo-
runub saxlanması barədə referen-
dumdan Naxçıvan əhalisinin imti-
na etməsi, Muxtar Respublikada
Kommunist Partiyasının yerli or-
qanlarının fəaliyyətinin dayandırıl-
ması, 20 Yanvarın Ümumxalq
Hüzn Günü, 31 Dekabr - Dünya
Azərbaycanlılarının Həmrəylik Gü-
nü elan edilməsi, ilk demokratik is-
lahatların keçirilməsi, ilk milli sər-
həd qoşunlarının yaradılması, keç-
miş Sovet ordusu Muxtar Respub-
likanı tərk edərkən hərbi hissədəki
silah-sursatın və texnikanın Azər-
baycanın digər bölgələrindən fərqli
olaraq tamamilə Naxçıvanda sax-
lanılması ulu öndərin bacarığı, li-
derlik qabiliyyətinin göstəricisi idi.
Heydər Əliyevin Naxçıvana qa-
yıdışı Azərbaycanı dağıtmaq istə-
yən daxili və xarici düşmənləri cid-
di təşvişə salmışdı. Elə bu səbəb-
dən də 90-cı illərdə Naxçıvana təz-
yiqlər get-gedə güclənir, respubli-
ka tamamilə blokada şəraitində
saxlanılır, ərzaq qıtlığı, elektrik
enerjisinin və qazın verilməməsi
demək olar ki, naxçıvanlıları çox
çətin vəziyyətdə yaşamağa vadar
edirdi. Lakin Naxçıvan camaatı
Heydər Əliyevlə birlikdə bütün çə-
tinliklərə qalib gəlməyə hazır idi.
Heydər Əliyevin Azərbaycan və
Naxçıvan MR Ali sovetlərinə depu-
tat seçilməsi xalqın iradəsi və qə-
tiyyətinin ifadəsi idi. Həmin vaxt-
dan Naxçıvanın ictimai-siyasi hə-
yatında böyük canlanma, tərəqqi
dövrü başlandı. Muxtar Respubli-
kanın Ali hakimiyyət orqanında də-
yişiklik edildi, üçrəngli dövlət bay-
rağı və digər dövlət rəmzləri haq-
qında qərarlar qəbul olundu.
1991-ci il sentyabrın 3-də Hey-
dər Əliyevin Naxçıvan MR Ali Məc-
lisinə sədr seçilməsi böyük hadisə
oldu. Bu seçimlə ulu öndər ilk növ-
bədə nəinki muxtar respublikada,
həmçinin bütün Azərbaycanda mil-
li dövlətçiliyə inam hissini forma-
laşdıra bildi. Ümummilli lider, eyni
zamanda bölgənin erməni təcavü-
zündən müdafiəsi ilə bilavasitə
məşğul olmağa başladı, bu məsə-
lə onun əsas fəaliyyət istiqamətinə
çevrildi. Heydər Əliyev ağır bloka-
da şəraitinə baxmayaraq, muxtar
respublikanın müdafiəsini yüksək
səviyyədə təşkil etməyə, onu təca-
vüzkarlardan qorumağa nail oldu,
Naxçıvanın bircə kəndi belə düş-
mən əlinə keçmədi. Ulu öndər
Naxçıvan ərazisini erməni işğalın-
dan, əhalini aclıqdan, səfalətdən,
soyuqdan donmaqdan, ümumiy-
yətlə məhv olmaqdan qorudu. Bö-
yük dövlət xadiminin ilk gündən
həyata keçirdiyi tədbirlər Naxçıva-
nı düşmən əlinə keçmək təhlükə-
sindən xilas etdi. Bu, Naxçıvan
əhalisinin hər zaman arxalandığı,
etibar etdiyi Heydər Əliyevin müd-
rik və yenilməz siyasətinin təcəs-
sümü və eyni zamanda Azərbay-
canın milli müstəqilliyinə doğru at-
dığı ilk addım idi.
90-cı illər Naxçıvan Muxtar Res-
publikasının ən ağır dövrü idi. Şi-
maldan və şərqdən Ermənistanın,
qərbdən və cənubdan Türkiyə və
İranın əhatəsində olan Naxçıvan
faktiki olaraq Ermənistan tərəfin-
dən blokadaya salınmış, Azərbay-
canla əlaqə kəsilmişdi. 1991-ci ilin
dekabr ayından muxtar respublika-
ya qaz nəqlinin, o cümlədən elekt-
rik enerjisinin tamamilə kəsilməsi,
dəmir yolunun fasilələrlə işləməsi
və 1992-ci ilin aprel ayından tama-
milə dayandırılması onsuz da ağır
olan sosial-iqtisadi vəziyyəti böh-
ran həddinə çatdırmışdı. Taleyin
ümidinə qalmış Naxçıvanı bu və-
ziyyətdən çıxarmaq üçün muxtar
respublikanın Ali Məclisinə sədrlik
edən Heydər Əliyev həmin illər
qonşu Türkiyə və İranla geniş
əməkdaşlıq əlaqələrinin qurulması
istiqamətində məqsədyönlü siya-
sət yürüdürdü. Belə ki, 1992-ci ilin
martında Heydər Əliyev Türkiyə
Cümhuriyyətinə ilk rəsmi səfəri za-
manı Türkiyə Prezidenti Turqut
Özal, Baş nazir Süleyman Dəmirəl
və digər rəsmi şəxslərlə görüşlə-
rində Ermənistanın Azərbaycana
qarşı təcavüzü və Naxçıvanın ağır
vəziyyətdə olduğunu bildirdi. Mux-
tar respublikanın düşdüyü iqtisadi
çətinlikləri, blokadanın vurduğu zi-
yanı aradan qaldırmaq üçün qonşu
Türkiyə və İranla iqtisadi əlaqələr
yaradıldı. 70 illik fasilədən sonra
qardaş Türkiyə ilə qurulan qarşılıq-
lı münasibətlər, ardıcıllıqla aparılan
danışıqlar, qəbul edilən qərarlar ta-
rixi Türkiyə-Azərbaycan birliyinin
bərpasına və blokadaya düşmüş
Naxçıvan Muxtar Respublikasının
xilasına yönəlmişdi. Bu əlaqələrin
genişləndirilməsində 1992-ci il ma-
yın 28-də Araz çayı üzərində Türki-
yənin Dilucu və Azərbaycanın Sə-
dərək bölgələrini birləşdirən 11
aşırımlı və o vaxtdan "Ümid", "Həs-
rət" adlanan körpünün tikilib istifa-
dəyə verilməsinin böyük əhəmiy-
yəti oldu.
1992-ci il may ayının 28-də
Azərbaycan-Türkiyə sərhədində,
Araz çayı üzərindəki uzunluğu
288, eni 12 metr olan Sədərək-Di-
lucu körpüsü iki ölkə arasında iqti-
sadi, mədəni, sosial, siyasi əlaqə-
lərin inkişaf simvoluna çevrildi. 60
millət vəkili və 40-dan çox nüfuzlu
kütləvi informasiya vasitələri nü-
mayəndələri ilə Araz çayı üzərində
qurulan "Ümid" körpüsünün açılı-
şında iştirak etmək üçün Naxçıva-
na gələn Türkiyənin Baş naziri Sü-
leyman Dəmirəl Türkiyə-Azərbay-
can birliyinin sarsılmazlığından
bəhs edərkən körpünün əhəmiy-
yətini yüksək qiymətləndirmişdir:
"Bu körpü, sadəcə, Türkiyə və
Azərbaycanı deyil, iki ayrı dünyanı,
Avropayla Asiyanı, Avropayla Qaf-
qazları - hamısını bir-birinə bağla-
yacaqdır. Məhz onu dəyərli edən
də budur". "Ümid" körpüsü Naxçı-
vanda blokada vəziyyətinin yarat-
dığı çətinliklərin aradan qaldırılma-
sına, əhalinin maddi rifah halının
yaxşılaşdırılmasına, muxtar res-
publikanın hərtərəfli inkişafına tə-
kan verməklə yanaşı, həm də nəq-
liyyat əlaqələrinin inkişafı və bey-
nəlxalq daşımalar üçün yeni istiqa-
mətlərin müəyyənləşdirilməsində
mühüm rol oynadı. İki qardaş ölkə-
ni birləşdirən bu körpü hər şeydən
əvvəl isə Azərbaycan-Türkiyə əla-
qələrinin inkişafının başlanğıcı ol-
du.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**